# "UNEC Diplomatiya Təşkilatı"-nın Əsasnaməsi

## I. Ümumi müddəalar

1.1. "UNEC Diplomatiya Təşkilatı" (bundan sonra "Təşkilat") təhsil alan gənclərin inkişafını və diplomatiya sahəsində iştirakını təmin etməklə məşğul olan, təhsil müəssisəsinin ictimai həyatında diplomatik fəaliyyətin artırılması, tələbələrin intellektual potensiallarının və diplomatik bacarıqlarının inkişaf etdirilməsi, onların ideya və təkliflərinin dəyərləndirilməsi, beynəlxalq münasibətlər və politologiya sahəsi üzrə məlumatlandırılması, eləcə də bu sahələr üzrə təcrübə əldə etmələri üçün aktiv fəaliyyət göstərən tələbə təşkilatıdır.

1.2. Təşkilat Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Dövlət İqtisad Universitetinin (bundan sonra UNEC) Nizamnaməsinə və bu Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

1.3. Təşkilat, tələbələrin diplomatiya sahəsində fəaliyyətini dəstəkləmək məqsədi ilə UNEC rəhbərliyi ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## II. Təşkilatın əsas məqsəd və vəzifələri

2.1. Təşkilatın əsas məqsədi tələbələrin diplomatiya sahəsindəki fəaliyyətini dəstəkləmək, onların ideya və təkliflərini dəyərləndirmək, təhsil aldıqları ixtisas üzrə potensiallarını üzə çıxaracaq layihələr həyata keçirmək və diplomatiya sahəsində fəal iştiraklarını təmin etməkdir.

2.2. Təşkilatın əsas vəzifələri aşağıdakılardır:

2.2.1. tələbələrin diplomatiya, intellektual sahələrdə təcrübə qazanması üçün verdikləri ideya və təkliflərinin dəstəklənməsi və həyata keçirilməsi;
2.2.2. politologiya və beynəlxalq münasibətlərlə bağlı layihələrin təşkili və inkişaf etdirilməsi;
2.2.3. tələbələrin beynəlxalq məsələlərlə bağlı fikirlərinin müzakirəsi və debatların keçirilməsi;
2.2.4. diplomatik tədbirlərdə tələbələrin iştirakının təmin edilməsi;
2.2.5. tələbələrin ixtisas biliklərini artırmaq və ixtisaslarına olan maraqlarının yüksəldilməsi üçün yarışların təşkil edilməsi;
2.2.6. tələbələrin iştirakı ilə diplomatiya sahəsində seminarların, iclasların, sərgilərin, gəzintilərin, elmi konfransların, təlimlərin, diskussiya klublarının, müzakirələrin, görkəmli şəxslərlə görüşlərin təşkil edilməsi;
2.2.7. tələbələrin maraqlarını və intellektual inkişafını təmin etmək üçün müxtəlif klubların, kursların, xidmətlərin təşkil edilməsi;
2.2.8. tələbələrin problemlərinin həll edilməsi məqsədilə müvafiq qərarların qəbul olunması üçün məsələlərin UNEC-in Elmi Şurasına çıxarılması, universitetin rəhbərliyi qarşısında vəsatətin qaldırılması;
2.2.9. qanunvericilikdə qadağan edilməyən digər vəzifələrin həyata keçirilməsi.

## III. Təşkilata üzvlük, üzvlərin hüquq və vəzifələri

3.1. UNEC-də təhsil alan bütün tələbələr təşkilata üzv ola bilərlər.
3.2. Təşkilata üzvlük könüllü xarakter daşıyır.
3.3. Təşkilata üzvlərin qəbulu təşkilatın idarə heyəti tərəfindən həyata keçirilir.

3.4. Təşkilata üzv olmaq istəyənlər qeydiyyat linkində yer alan formanı doldurur. Müraciətə 2 gün müddətində baxılır və idarə heyəti üzvlərinin yarıdan çoxu müsbət münasibətini bildirdiyi təqdirdə üzvlüyə qəbul həyata keçirilir.
3.5. Təşkilata üzv olma tələbi irəli sürən tələbənin tələbi aşağıdakı hallarda qəbul edilmir:
3.5.1. Tələbə təşkilata hansı məqsədlə üzv olmaq istədiyini açıqlamadıqda;
3.5.2. Tələbə təşkilatın keçirəcəyi hansı tədbirlərə qatılacağını qeyd etmədikdə.

3.6. Təşkilat üzvləri bərabər hüquqludurlar və aşağıdakı hüquqlara malikdirlər:
3.6.1. təşkilatın hər hansı struktur bölməsinə seçilmək;
3.6.2. təşkilatın təşkil etdiyi tədbirlərdə iştirak etmək;
3.6.3. təşkilatın fəaliyyəti barədə məlumat almaq;
3.6.4. müxtəlif layihə və proqramlarla çıxış etmək;
3.6.5. öz mənafeyinin müdafiəsinə kömək göstərilməsi üçün təşkilata müraciət etmək.

3.7. Təşkilatın üzvləri aşağıdakı vəzifələri daşıyırlar:
3.7.1. təşkilatın Əsasnaməsinə əməl etmək;
3.7.2. gördüyü işlərə məsuliyyətlə yanaşmaq;
3.7.3. təşkilatın struktur bölmələrinin qərarlarını yerinə yetirmək.

3.8. Təşkilatın üzvünün fəaliyyətinə aşağıdakı hallarda xitam verilir:
3.8.1. təşkilat ləğv edildikdə;
3.8.2. könüllü olaraq təşkilatın üzvlüyündən çıxdıqda;
3.8.3. təşkilatın üzvlüyündən xaric olunduqda.

3.9. Təşkilatın üzvü üzvlükdən aşağıdakı hallarda xaric olunur:
3.9.1. təşkilatın Əsasnaməsində göstərilən bəndləri pozduqda;
3.9.2. təşkilatın nüfuzuna zərər verən hərəkətlər etdikdə;
3.9.3. universitetdaxili intizam qaydalarını kobud şəkildə pozduqda;
3.9.4. universitetdən xaric edildikdə;
3.9.5. qanunvericiliyə zidd olan hərəkətlər etdikdə;

3.10. Təşkilat üzvünün, üzvlüyünə xitam verilməsindən narazı qaldığı halda təşkilatın sədrinə və idarə heyətinə, şikayət etmək hüququ var.

## IV. Təşkilatın strukturu

4.1. Təşkilatın strukturu aşağıdakılardan ibarətdir:
4.1.1. İdarə heyətinin sədri
4.1.2. Sədrin müavinləri
4.1.3. Layihə departamentinin rəhbəri
4.1.4. Fakültələr üzrə sədrlər
4.1.5. Tələbələrlə iş üzrə koordinatorlar
4.1.6. Qrafik dizayner/Sosial media meneceri

## V. Təşkilatın idarəetmə orqanları

5.1. Təşkilatın idarəetmə orqanları aşağıdakılardır:
5.1.1. İdarə heyəti
5.1.2. Təşkilat Direktoru
5.1.3. Təşkilat Məclisi

5.2. İdarə heyətinin fəaliyyəti bu əsasnaməyə uyğun olaraq həyata keçirilir.

5.2.1. İdarə heyəti təşkilatın strateji inkişafını, əsas fəaliyyət istiqamətlərini və prioritetlərini müəyyən edir.

5.3. İdarə heyətinin tərkibi və seçilməsi
5.3.1. idarə heyətinin say tərkibi Təşkilat Məclisində müzakirələr əsasında müəyyənləşdirilir.
5.3.2. idarə heyətinin üzvləri sədr tərəfindən təyin edilir.
5.3.3. idarə heyətinin üzvlərinin səlahiyyət müddəti bir il təyin edilir.
5.3.4. idarə heyətinin sədri seçkilər yolu ilə bir il müddətinə təyin edilir.

5.4. İdarə heyətinin funksiyaları
5.4.1. təşkilatın Əsasnaməsində dəyişikliklər və əlavələr təklif etmək.
5.4.2. təşkilatın fəaliyyət planını və strateji inkişaf proqramlarını təsdiq etmək.
5.4.3. illik fəaliyyət hesabatlarını qəbul etmək və hesabatları Təşkilat Direktoruna, həmçinin Təşkilat Məclisinə təqdim etmək.
5.4.4. təşkilatın üzvlərini üzvlükdən çıxarmaq və yeni üzvləri qəbul etmək.

5.5. İdarə heyətinin hüquq və vəzifələri
5.5.1. təşkilatın məqsəd və vəzifələrinə uyğun fəaliyyətlərin həyata keçirilməsini təmin etmək.
5.5.2. təşkilatın iş planını təsdiq etmək və icrasına nəzarət etmək.
5.5.3. təşkilatın il ərzində gördüyü işləri şəffaflıqla üzvlərə təqdim etmək.

5.6. İdarə heyətinin üzvlüyündən çıxarılma
5.6.1. idarə heyətinin üzvü könüllü olaraq istefa verə bilər.
5.6.2. idarə heyətinin üzvü ciddi qayda pozuntularına yol verilməsi və ya vəzifəsini yerinə yetirməməsi səbəbindən üzvlükdən çıxarıla bilər.
5.6.3. üzvlükdən çıxarılma qərarı idarə heyətinin ümumi yığıncağında qəbul edilir.

5.7. Təşkilat Direktoru
5.7.1. Təşkilat Direktorunun (bundan sonra Direktor) məqsədi təşkilatın strategiya və fəaliyyətinə, eyni zamanda idarə heyətinə nəzarət etməkdir.
5.7.2. Direktor universitet rəhbərliyi tərəfindən təşkilatın sədri (bundan sonra sədr) ilə müzakirə əsasında təyin olunur.
5.7.3. Direktor beynəlxalq münasibətlər ixtisası üzrə mütəxəssis müəllimlər arasından təyin edilir.
5.7.4. Direktorun fəaliyyəti hər il Təşkilat Məclisi və sədr ilə müzakirələr əsasında qiymətləndirilir.

5.8. Təşkilat Məclisi
5.8.1. təşkilatın ali orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Təşkilat Məclisidir (bundan sonra Məclis).
5.8.2. Məclis nümayəndələri təşkilatın hal-hazırda təhsil almağa davam edən sabiq sədrləri, sabiq idarə heyəti üzvləri, fəxri vəzifə sahibləri və üzvlərin arasından seçilə bilər.
5.8.3. Məclisin hər çağırılışında orqanın nümayəndələrinin ortaq iradəsini təmsil edən və toplantını nizamlayan Məclis Rəhbəri (bundan sonra Rəhbər) seçilir.
5.8.4. Rəhbər Məclis nümayəndələrinin öz daxilində aparılan səs vermə prosesi nəticəsində nümayəndələrin arasından seçilir.
5.8.5. Məclis nümayəndələrinin seçilməsi təhsil müəssisəsində tələbələrin sayına əsasən formalaşdırılır və Direktor tərəfindən təsdiqlənir.
5.8.6. üzvlərin yarıdan çoxunun yazılı müraciətinə, idarə heyəti üzvlərinin yarıdan çoxunun tələbinə və Təşkilat Direktorunun qərarına əsasən növbədənkənar Məclis çağrıla bilər.
5.8.7. Məclis hər il gerçəkləşən müntəzəm çağırışlar barəsində təşkilatın üzvlərinə ən azı 7 (yeddi) gün qalmış məlumat verilməlidir.

5.9. Məclis aşağıdakı səlahiyyətə malikdir:
5.9.1. təşkilatın strukturunda və əsasnaməsində dəyişikliklərin edilməsi üçün təkliflərin verilməsi;
5.9.2. təşkilatın icra orqanlarının səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması və yeni icra orqanlarının təşkil edilməsi;
5.9.3. təşkilatın illik hesabatının təsdiq edilməsi;

5.9.4. təşkilat üzvlərinin şikayət və müraciətlərinin dinlənilməsi;
5.9.5. təşkilatın icra orqanlarının rəhbərlərinin hesabatlarının dinlənilməsi.
5.9.6. Məclis nümayəndələrinin yarısından çoxu (50%+1) iştirak etdikdə səlahiyyətli hesab olunur.
5.9.7. Məclisdə müzakirə olunan məsələlər haqqında qərar nümayəndələrin sadə səs çoxluğu ilə qəbul edilir.
5.9.8. Məclisdə yazılı protokol aparılır, protokol sədr və katib tərəfindən imzalanır.

**5.10. Seçki prosedurları**

5.10.1. sədr seçkiləri gizli səsvermə yolu ilə onlayn formatda keçirilir.
5.10.2. sədr seçkilərinə namizədliyini irəli sürən tələbələr onlayn formatda qeydiyyatdan keçməlidirlər.
5.10.3. namizədliyi irəli sürülən tələbənin ÜOMG 71-dən az olmamalıdır.
5.10.4. sədr seçkilərinə yalnız beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələr namizədliyini irəli sürə bilər. (IV kurs tələbələri istisna olmaqla.)
5.10.5. hər bir tələbə yalnız bir namizədə səs verə bilər.
5.10.6. hər hansı bir namizəd seçki nəticələrinə dair etiraz etmək istəyirsə, bu etirazı yazılı şəkildə seçki nəticələrinin elanından sonra 3 iş günü ərzində seçki komissiyasına təqdim etməlidir.
5.10.7. sədr təkrar seçilmək hüququ ilə bir il müddətinə seçilir.

## VI. Təşkilatın fəaliyyətinin təşkili, layihə və proqramları

6.1. Təşkilatın fəaliyyətinin təşkili onun məqsədlərinə və bu əsasnaməyə uyğun həyata keçirilir.
6.2. Layihə və proqramlar tələbələrin diplomatiya sahəsində fəal iştirakını təmin etmək məqsədilə tərtib edilir.

## VII. Təşkilatın yaradılması, yenidən təşkili və fəaliyyətinə xitam verilməsi

7.1. Təşkilatın yaradılması, yenidən təşkili və ya ləğv edilməsi UNEC-in Elmi Şurasının müvafiq qərarı ilə həyata keçirilir.